# “Daha yaxşı qidalanma və daha təhlükəsiz qida üçün qida məhsullarının istehlakı məlumatları üzrə potensialın artırılması” layihəsi (2025–2026)

AQTA və FAO əməkdaşlığı ilə icra olunan bu layihə ölkədə qida məhsullarının istehlakı üzrə etibarlı, hərtərəfli məlumat bazasının formalaşdırılması üçün institusional və texniki potensialın gücləndirilməsinə yönəlib. Toplanacaq məlumatlar sağlam qidalanma siyasətlərinin hazırlanması, qida təhlükəsizliyi risklərinin daha dəqiq qiymətləndirilməsi və “Vahid Sağlamlıq” yanaşmasının təşviqi baxımından strateji əhəmiyyət daşıyır.

Layihə çərçivəsində gözlənilən nəticələr:

- Əhalinin qida istehlakına dair məlumatların toplanması məqsədilə hərtərəfli milli yol xəritəsi hazırlanması və onun tətbiqi imkanlarının genişləndirilməsi;
- Pilot layihə kimi seçilmiş əhali qrupu arasında qida istehlakına dair məlumatların toplanması;
- Qida təhlükəsizliyi və qidalanma üzrə mütəxəssislər, eləcə də geniş ictimaiyyət arasında sağlam qidalanma, qida təhlükəsizliyi və “Vahid Sağlamlıq” yanaşması haqqında məlumatlılığın artırılması.

Layihə üzrə əldə olunması nəzərdə tutulan hədəflər:

- Əhalinin bütün qruplarını əhatə edəcək geniş və dolğun milli qida istehlak verilənlər bazasının yaradılması;
- Qida təhlükəsizliyi standartlarının izlənməsi və qida çatışmazlıqları və yaxud qidalanma pozuntuları ilə əlaqədar problemlərin aradan qaldırılmasına yönəlmiş tədbirlərin hazırlanması;
- Yığılmış məlumatların qida siyasətlərinin formalaşdırılmasına və aqrar siyasətin inkişafına töhfə verməsi;
- Beynəlxalq mütəxəssislərin iştirakı və təlimlər sayəsində yerli mütəxəssislərin qida təhlükəsizliyi sahəsində ən yaxşı təcrübələrin və qlobal standartların öyrənməsi;
- Azərbaycanda qida təhlükəsizliyi və sağlamlıq sahəsində əhəmiyyətli irəliləyişlərə imkanın yaradılması.

Layihə nəticələri Azərbaycanda qida təhlükəsizliyi, qidalanma və ictimai sağlamlıq sahəsində uzunmüddətli, dayanıqlı irəliləyiş üçün möhkəm əsas yaradacaq.